Azərbaycan Dövlət Pedaqoji
Universitetinin Elmi Şurasının
13 sentyabr 2019-cu il tarixli iclasının
qərarı ilə (protokol № 1) təsdiq edilmişdir.

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**
**kadr hazırlığı aparılan bakalavr səviyyəsi üzrə ixtisaslarında**
**Eksperimental qrupların yaradılması və idarə olunması haqqında**
**QAYDALAR**

**1. Ümumi müddəalar.**

1.1. Azərbaycan Respublikasının Təhsil Qanununu, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nı, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 iyun tarixli 102 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyası"nı, Azərbaycan Dövlət Pedaqoji Universitetinin (bundan sonra ADPU) Nizamnaməsini, "ADPU-2021" Strateji İnkişaf Planını əsas götürərək, bakalavr səviyyəsi üzrə fakültələrin təklifini nəzərə alaraq eksperimental qruplar yarada bilər.

1.2. ADPU-nun ayrı-ayrı ixtisaslar üzrə eksperimental qrup yaratmaqda məqsədi – yeni nəsil pedaqoji kadr hazırlığında tədrisin keyfiyyətinin yüksəldilməsi, təhsil sistemində yeni və fərqli bir mühitin yaradılması, savadlı, bacarıqlı və hazırlıqlı tələbə yetişdirilməsi, əmək bazarının artan tələblərinə müvafiq olaraq, müasir tələblərə cavab verən , yüksək ixtisaslı kadr hazırlığının təmin edilməsidir.

1.3. Bu qaydalar eksperimental qrupun yaradılması şərtlərini, bu qruplar üçün tələbə seçmək meyarlarına dair bu müddəaları, seçim prosesini, eksperimental qrupun təşkili, idarəolunması ilə bağlı bütün əsas məsələləri tənzimləyir.

1.4. Eksperimental qrupa bakalavr ixtisası üzrə ADPU-da təhsil alan birinci kursu bitirən tələbələr arasından müsabiqə əsasında intellektal potensiala malik, ingilis dilini yaxşı mənimsəyən, yüksək beynəlxalq standartlara uyğun səviyyədə işləməyə cəhd göstərən, birinci kurs nəticələri yüksək olan tələbələrdən seçilir.

1.5. Eksperimental qrup əsasən eyni tədris ili üzrə, birdən çox tədris qrupu olan ixtisasda, əlavə dərs yükü yaratmamaq şərti ilə yaradılır. SABAH qruplarının yaradıldığı ixtisas üzrə Eksperimental qrup, SABAH qruplarına seçim bitdikdn sonra təşkil olunur.

1.6. Eksperimental qrupların yaradılması zamanı tələbələrin könüllülüyü, ilk təhsil ili nəticələri, motivasiyası əsas götürülür.

1.7. Eksperimental qrup yaradılması proqramı ADPU-nin genişmiqyaslı təbliği, investisya cəlb olunması, seçilmiş tələbələrin beynəlxalq təhsil, elmi, mədəni proqramlarında və qrant layihələrində iştirakına həvəsləndirmək, ən istedadlılarının adlı təqaüdlərə təqdim olunması və praktiki işlərə cəlb olunması məqsədini də özündə əks etdirir.

**2. Eksperimetal qrupun təşkilinin əsas vəzifələri.**

ADPU baklavr səviyyəsində ixtisaslar üzrə eksperimental qrupun təşkil olunmasının əsas vəzifələri aşağıdakılardır:

2.1. beynəlxalq standatlara uyğun, innovativ texnologiyalara, ingilis dilinin biliklərinə malik olan müasir, yüksək ixtisaslı və rəqabətə davamlı pedaqoji kadrların hazırlanması;

2.2. eksperimental qrup məzunlarının respublikada və xarci ölkələrdə sürətlə dəyişən həyat tərzinə çevik uyğunlaşmaları üçün seçilmiş ixtisas üzrə yüksək səviyyəli bilik, bacarıq, vərdiş və bacarıqların əldə edilməsi;

2.3. pedaqoji kadr hazırlığında respublikadakı  təhsil sisteminin beynəlxalq sistemə inteqrasiyası;

2.4. tələbələrin ADPU və onun filiallarında, baza təşkilatlarında elmi, pedaqoji və digər praktiki işə cəlb edilməsi;

2.5. gələcək məzunların  əmək bazarında rəqabətədavamlı və savadlı namizədlərə çevrilməsinə nail olmaq.

**3. Eksperimental qrupun təşkili və idarəolunması.**

3.1. Eksperimental qrup ADPU-nun müvafiq fakültəsində yaradılmış seçim komissiyası tərəfindən müvafiq ixtisası üzrə təhsil alan və qeydiyyatdan keçən, birinci kursu akademik borcu olmadan bitirmiş tələbələr arasından müsabiqə əsasında seçilməklə, fakültə elmi Şurasının qərarı, fakültə dekanın təqdimatı və Rektorun əmri ilə  yaradılır.

3.2. Seçim Komissiyası fakültə dekanı tərəfindən, onun rəhbərliyi altında dekan müavini, ixtisasının aparıcı kafedrasının müdiri,  müvafiq sahə üzrə fakültənin tanınmış professor-müəllimlərindən, ixtisasın tyutorundan və s., şəxslərdən ibarət olmaqla 5 və ya 7 nəfərdən ibarət olmaqla yaradılır.

3.3. Seçim Komissiyası eksperimental qrup müvafiq ixtisası üzrə təhsil alan və qeydiyyatdan keçən, birinci kursu akademik borcu olmadan bitirmiş tələbələr arasından müsabiqə əsasında aşağıdakılar meyarları nəzərə almaqla seçir:

- Tələbənin ümumi orta müvəffəqiyyət göstəricisi (bundan sonra - ÜOMG);
- birinci kursda imtahan nəticələrinin yüksək olması;
- DİM üzrə universitetə qəbul imtahanlarındakı balı%
- yüksək intellektual potensialı;
- məntiqi düşünmə bacarığı;
- ixtisas fənlərini yaxşı bilməsi;
- İKT-dən yararlanma bacarığı;
- İngilis dilini lazımı səviyyədə mənimsəməsi;
- müxtəlif  təyinatlı  konfrans və layihələrdə iştirakı;
- digər nailiyyətlər.

3.4. Tələbələrin müvəffəqiyyət göstəricilərindən asılı olaraq eksperimental qrupun tərkibinin seçilməsinə dair Komissiyanın qərarı, dərs ilinin əvvəlində fakültə Elmi Şurasında baxıldıqdan sonra Rektorun əmri ilə təsdiq olunur.

3.5. Eksperimental qrupda dərslər əsasən ingilis dilini bilən yüksək ixtisaslı mütəxəssislərin iştirakı ilə aparılır. Ekpserimental qruplarda dərs deyəcək müəllimlər bir qayda olaraq dekanın razılığı müəyyən olunur.

3.6. Dekan Eksperimental qrup üzrə ayrıca tyutor müəyyən edir və tələbələrin tədrislə bağlı bütün məsələlərini birbaşa həmin şəxs tənzimləyir.

3.7. Eksperimental qrupda tələbələrin hazırlanması planında mövcud tədris planından əlavə fakültətiv dərslər salına bilər. Bu zaman aşağıdakılar nəzərdə tutulur:

-beynəlxalq təhsil proqramlarına aktiv qoşulma;

-əlavə kurslar sistemi vasitəsilə tələbələrin xarici dil hazırlıqlarının genişləndirilməsi;

-mövcud tədris planından əlavə müəyyən ixtisas fənlərinin dərindən tədrisi;
-nitq mədəniyyətinin formalaşdırılması üçün “Debat” kursunun təşkili;
-elmi-praktiki konfrans, seminar, festival və olimpiadalarda fəal iştirak;
-o cümlədən aşağıda qeyd olunan proqramlarda iştirak:
a) Azərbaycan Respublikasının Gənclər Fondunun qrant layihələrində;
b) Beynəlxalq tələbə mübadiləsi proqramlarında;
c) Global Student Exchange Program (ABŞ Dövlət Departamentinin proqramı);
d) Ölkədə təşkil olunan müxtəlif beynəlxalq tədbirlərdə könüllü olmaq və s.

**4. Eksperimental qrup tələbələrinin əsas vəzifələri.**

4.1. Eksperimental qrupun tələbələri:

- ADPU-nun, fakültəsinin qaydalarına ciddi riayət edir;
- tədris prosesinin qəbul olunmuş qaydalarına əməl edir;
- ADPU rektorunun əmr və sərəncamlarını yerinə yetirir;
- Unversitet əmlakına qayğı ilə yanaşır,onların sıradan çıxmasına imkan vermir;

4.2. Tədris prosesinin qəbul olunmuş nizam-intizam qaydalarını pozulduqda tələbə qrupdan çıxarılır.

**5. Eksperimental qrupda tələbələrin biliyinin qiymətləndirilməsi.**

5.1. Tədris planından əlavə öyrədilən fənlər üzrə qazanılan biliklərin qiymətləndirilməsi uyğun kafedraların əməkdaşlarının iştirakı ilə dekanlığın formalaşdırdığı komissiya tərəfindən həyata keçirilir.

5.2. Tədris planında nəzərdə tutulan fənlər üzrə imtahanlar “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnaməyə” uyğun olaraq nəzəri biliklərin və universitet rəhbərliyinin razılığı ilə həm də praktiki bacarıqlarının qiymətləndirilməsi yolu ilə həyata keçirilir.

**6. Yekun müddəalar.**

6.1. Eksperimental qrupların işləri ilə bağlı fakültə deaknıqları Azərbaycan Respublikası qanunverciliyinə və bu qyadalara zidd olmayan digər fəaliyyətləri həyata keçirə bilər.

6.2. Bu qaydaya ADPU Elmi Şurasında qəbul edilir və rektor tərəfindən təsdiq olunur. Qaydaara dəyişikliklər və əlavələr də eyni qaydada həyata keçirilir.